# Fədakar müəllim

(Əvvəli 5-ci səhifədə).

Müasir tələblərə cavab verən dərs çox yüksək səviyyədə keçdi. Müəllimin pedaqoji, metodiki cəhətdən hazırlığı diqqəti cəlb edirdi. Biz zamanın tələbinə uyğun olan maraqlı, düşündürücü və yaradıcı bir dərsin şahidi olduq. Qarşımızda peşəsindən zövq alan, gördüyü işlərdən mənəvi rahatlıq tapan bir müəllim var idi.

Şagirdlərin dərsdə fəallığı, ingilis dilində düzgün tələffüzü diqqət çəkirdi. Xarici dil müəlliminin nitqi öz aydınlığı, sadə qrammatik və leksik komponentlərin istifadəsi ilə, eyni zamanda jestlərlə səciyyələnirdi. Sinifdə şagirdlərin sayından çox qonaqların olmasına baxmayaraq, səkkizincilər sanki müəllimlərindən başqa heç kimi görmürdülər. Nümunəvi dərs kimi qeyd etsək də, onlar üçün bu dərs adi, gündəllik dərs idi. Məktəb rəhbərliyinin də qeyd etdiyi kimi Fazil Atakişiyev bütün dərslərini bu şəkildə qurur. Dərsdə təlimin müxtəlif interaktiv metod və üsullarından, böyük və kiçik qruplarla, fərdi iş formalarından məharətlə istifadə olundu. Dərsin sonunda müəllm müasir tələblər səviyyəsində özünəməxsus qiymətləndirmə apardı. Hər uğurlu nəticədən sonra uşaqlar öz yoldaşlarını alqışlayırdı ki, bu da onların dərsə olan marağını daha da artırırdı.

Hazırlığı, İKT ilə işləmək bacarığı, öz üzərində çalışması, şagirdlərə fərdi yanaşma qabiliyyəti onun müasir tələblərə uyğun müəllim olduğunun sübutudur.

Dərs qurtardıqdan sonra keçirilən müzakirədə müəllimlər dərs haqqında mülahizələrini bölüşdülər. 45 dəqiqəni səmərəli keçirdiyi üçün müəllimə təşəkkür etdilər.

Biz Fazil müəllmin uzun illərdir keçirdiyi maraqlı dərslərdən birini dinlədik və onun nə üçün sevilən müəllim olduğunun şahidi olduq. Dərs sözün əsl mənasında maraqlı və zəngin idi.

Fazil müəllim əsl pedaqoq olmaqla yanaşı, yaradıcı bir müəllmdir.

Biz ona daha böyük uğurlar arzu edirik.

**✍ Arifə BAYRAMOVA,**
**rayon təhsil şöbəsi metodkabinetinin müdiri.**

# Milli Oftalmologiya Mərkəzinin həkimləri tibbi müayinə aparmışlar



Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə rayon mərkəzi xəstəxanasında Akademik Zərifə Əliyeva Adına Milli Oftalmologiya Mərkəzinin əməkdaşları tərəfindən əhalinin tibbi müayinəsi aparılmışdır. Müraciət edən 245 vətəndaş mərkəzin həkimləri tərəfindən müayinə olunmuş, onların 22 nəfərində cərrahiyyə əməliyyatları aparılmışdır. Milli Oftalmologiya Mərkəzinin həyata keçirdiyi bu layihəni qəbələlilər sağlamlığa göstərilən qayğı kimi yüksək qiymətləndirmişlər.

***«Qəbələ».***

*Qoyunçuluq qədim zamanlardan insanların həyat şəraitinin yaxşılaşmasında mühüm rol oynayan ağır heyvandarlıq sahələrindən biridir. Qoyun həm də yeganə ev heyvanıdır ki, yanından keçərkən sahibinə:—Bərəkətli olsun!—deyirlər. Deməli qoyun bərəkət rəmzlərindəndir. Qoyunun ətindən, südündən, yunundan və mineral gübrə kimi peyinindən istifadə olunur. Hətta, keçmişdə qoyunun peyinindən yanacaq kimi evlərin isidilməsində də istifadə etmişlər.*

# Çoban Elza

Son zamanlar dövlətimiz tərəfindən kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə dair qəbul edilən qərarlar kənd əməkçilərinin böyuk ruh yüksəkliyinə səbəb olub. Əkinçiliyə, heyvandarlığa, bitkiçiliyə, meyvəçiliyə və digər sahələrə üz tutanların sayı gündən-günə artmaqdadır. Bu sahələrdən biri də heyvandarlığın bir qolu olan qoyunçuluqdur. Qoyunçuluq çətin sahə olduğuna görə adətən kişilər bu sahə ilə məşğul olub. Lakin haqqında söhbət açmaq istədiyim Zirik kənd sakini Elza Alışova hamıya subut edir ki, «aslanın erkəyi, dişisi olmaz". Yəni qoyunçuluqla qadınlar da məşğul ola bilər. Axı nədən olmasın?

Alışova Elza Ağasən qızı 1966-cı ildə Qəbələ rayonunun Zirik kəndində ziyalı ailəsində dünyaya göz açıb. Atası müəllim, anası Bağda xala isə keçmiş «Pravda» kolxozunun qabaqcıl tütünçülərindən olub. 1973-cü ildə Dizaxlı kənd orta məktəbinin 1-ci sinfinə daxil olan Elza, səkkizillik təhsillə məktəbi başa vurub, anasının peşəsini davam etdirib. Kolxozlar ləğv edildikdən sonra meylini qoyunçuluğa salıb. Gərgin zəhmət bahasına qısa müddət ərzində qardaşı Mehmanın köməkliyi ilə ata ocağında kiçik bir qoyunçuluq təsərrüfatı yaratmağa nail olub. Ağır çölçülük şəraiti Elzanı əsla bu işdən soyuda bilmir. Artıq 20 ilə yaxındır təcrübəli qoyunçu kimi peşəsini davam etdirir. Həmçinin qoyunların sayını da arzuladığı saya çatdıra bilib.

Bu gün el-oba arasında öz halal çörəyi ilə fəxr edib, alnı açıq, üzü ağ gəzirsə, bu da onun əməyinin bəhrəsidir. Yaşadığı ərazidə hamı Elzanı xeyirxah, ehtiyacı olanlara təmənnasız əl tutan qadın kimi də tanıyır. Hər gün Zirik kəndinin örüş sahələrində çiynində yemək çantası, əlində zoğal çomağı, kiçik sürüsünü otaran qadın görsəniz, heç də təəccüblənməyin. Bu Qəbələmizin ilk çoban qadınlarından olan Elza Alışovadır. Zərif cinsin nümayəndəsi — Allahdan buyruq, ağzıma quyruq—deyərək veyil-veyil orda burda dolaşan bığıburma cavanlara zəhməti ilə örnək Elza.

**✍ Cəlil SƏFƏRÇİNOV,**
**"Qəbələ"nin müxbir postunun rəhbəri.**

Elvin Mahmudov hələ çox gəncdir. Nic qəsəbə 3 saylı orta məktəbin onbirinci sinif şagirdidir. Qəbələ İncəsənət Məktəbində qarmon ixtisası üzrə təhsil alır. Dərs əlaçısıdır.

Elvin Mahmudov ifaçılığında milli rəqslərə, xalq mahnılarına və muğamlara həmişə üstünlük verir. «İnnabı», «Nəlbəki» rəqs-

# İstedadı cilalayan yalnız zəhmətdir

ləri, «Bizim Cəbiş müəllim» filmindən vals, «Şuşanın dağları», «Elə bəndəm» xalq mahnıları, «Qarabağ şikəstəsi», «Mənsuriyyə» ritmik muğamları onun ifasında gözəl səslənir. Bunlarla yanaşı rus, türk, ərəb və hind melodiyalarından nümunələri də bacarıqla ifa edir. Çalışır ki, musiqini dinləyiciyə mükəmməl çatdıra bilsin. Yaxşı bilir ki, istedadı cilalayan yalnız zəhmətdir.

Bunun nəticəsidir ki, bu yaxınlarda rayon gənclər və idman idarəsinin incəsənət məktəbi ilə birgə keçirdiyi ifaçılıq müsabiqəsinin qalibləri arasında Elvin Mahmudov da var idi. O, həmin müsabiqədə qarmon ixtisası üzrə birinci yeri tutaraq diplom və hədiyyə ilə mükafatlandırıldı.

Elvinn əldə etdiyi hər bir uğuru musiqi müəllimlərinin gərgin əməyinin, gənclərə göstərdiyi diqqət və qayğının bəhrəsi kimi dəyərləndirir.

Onun gələcək arzusu ali təhsilli musiqiçi olmaqdır. Bu yolda Elvinə uğurlar diləyirik.

**✍ Məhəmmədəli SƏFƏRÇİNOV,**
**rayon gənclər və idman idarəsinin baş məsləhətçisi.**

# İslam həmrəyliyi ənənələrini yaşadan ölkə

***Qədim tarixə malik Azərbaycan hər zaman bütün ölkələrlə, xalqlarla dinc, əmin-amanlıq şəraitində həyat sürmək ideyalarını rəhbər tutmuş, dinindən-dilindən asılı olmayaraq hər bir millətin mədəniyyətinə, adət və ənənələrinə qayğı və diqqətlə yanaşmışdır. Torpağımızda yaşayan hər bir millətin dini dəyərlərinə hörmət və ehtiram göstərilmişdir.***

Elə buna görədir ki, müxtəlif millətlərin nümayəndələri Azərbaycanı ana vətəni kimi sevirlər. Çünki onların dini baxışlarının, adət və ənənələrinin həyata keçirilməsinə heç bir və qadağa qoyulmur, əksinə hər cür şərait yaradılır. Bununla birlikdə Azərbaycan Respublikası hər zaman islam dəyərlərinin qorunması, yaşadılması və bu dinin dünyada təbliği sahəsində böyük işlər görmüşdür. İSESCO ilə müsəlman ölkələrini təmsil edən digər təşkilat və qurumlarla, İslam Əməkdaşlıq Təşkilatı ilə sıx əlaqələr, münasibətlər Azərbaycanı bu sahədə xeyli tanıtdı. Bir islam ölkəsi kimi Azərbaycan artıq qlobal əhəmiyyətli mühüm mədəni forumların təşkilatçısı olaraq dünyada öz yerini tutmuşdur. 2009-cu ildə Bakının islam mədəniyyətinin paytaxtı elan olunması, IV İslam Həmrəlliyi Oyunlarının 2017-ci ildə məhz paytaxtımızda keçirilməsi bunun bariz nümunəsidir. Bir müsəlman ölkəsi olaraq Azərbaycan dünyada xüsusilə də islam aləmində böyük nüfuza malikdir.

Ölkəmizdə İslam sivilizasiyasının ilk nümunəsi kimi 743-cü ildə Şamaxıda tikilmiş Cümə məscidi bir daha təsdiq edir ki, Azərbaycanda hər zaman islami dəyərlər qorunub saxlanmışdır. Bu gun Azərbaycan ərazisindəki islam mədəniyyətinin dəyərli, tarixi abidələri olan bütün məscidlər əsaslı şəkildə təmir olunaraq mühafizə edilməkdədir. Əjdərbəy, Şamaxı Cümə məscidi, Təzəpir, Bibiheybət və s. kimi məscidləri buna misal göstərmək olar.

Azərbaycanın bir guşəsi olan Qəbələ rayonunda da bu kimi abidələr coxdur. Bum qəsəbəsində 1887-ci ildə inşa edilmiş Came məscidi, XVI əsr Həzrə türbələri, XVIII əsrin dəyərli abidəsi səkkizgüşəli Qəbələ məscidi, şəhərin mərkəzindəki 1899-1906-ci illərdə tikilmiş Cümə məscidi və s. bu kimi tarixi yadigarlar islam mədəniyyətinin mühafizəsinin və təbliğinin sübutudur. Sovet hakimiyyəti illərində xalqımıza dinlə bağlı ən sərt qadağalar qoyulduğu halda 1985-ci ildə rayonumuzun ərazisindəki səkkizgüşəli məscidin həyətində mədrəsə inşa edilmişdir. Bu da onu göstərir ki, xalqımız hər cür qadağalara məhəl qoymayaraq islami dəyərlərin qorunması naminə çox işlər görmüşdür. Bildiyimiz kimi Qəbələ rayonu ərazisində 90-dan artıq tarixi abidə mühafizə edilməkdədir ki, bunların da bir neçəsi islami dəyərləri əks etdirir. Tarixi abidə kimi mühafizə edilən XVI əsr Həzrə türbələri də bu sıradandır.

Muzeyimizin daimi sərgisində bir kitab özünəməxsus yer tutur. Həmyerlimiz Hacı Əhməd Əfəndinin "İrşadi-islam" əsəri tamaşacılarda daha çox maraq oyadır. 1911-ci ildə Bakıda "Orucov qardaşları" mətbəəsində cap olunmuş bu kitabın hazırda dünyada cəmi iki nüsxəsi mühafizə olunur. Nusxənin biri muzeyimizin daimi sərgisində, digəri isə M. Y. Saltıkov-Sedrin adına Peterburq Dövlət Kitabxanasındadır. Kitab islami ədəb-ərkanın, qaydalarının nəsihətamiz, ən dəyərli əsəri kimi muzeyimizdə mühafizə edilir. 1850-ci illərdə çar rusiyası Azərbaycanı müstəmləkə kimi talayır, öz dini ayinlərini icra etməyə icazə vermir, sərt qadağalar qoyurdu. Lakin həmin o çətin dövrdə, uzun illər çar ordusunda əvəzedilməz xidmət göstərən İsmayıl Bəy Qutqaşınlının iki dəfə Məkkəyə həcc ziyarəti etməsi bunu bir daha təsdiqləyir ki, xalqımızın hər bir nümayəndəsi islami dəyərlərini qoruyub saxlamış, dini ayinlərini icra etmişdir. Çünki çar Rusiyası çox yaxşı bilirdi ki, insanların dinə bağlılığı, xalqın ümumi həmrəyliyi onlara maneələr törədə bilər. Bəli bütün bunlar bir daha sübut edir ki, dininə bağlılıq milli mənsubluğun, milli özünüdərkin əsasıdır.

**✍ İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**